BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2013*

**UOT 94 ''19/…''; 94 (479.24)**

# AVROPA İTTİFAQININ AZƏRBAYCANLA TEXNİKİ ƏMƏKDAŞLIĞINA DAİR (1999-2005-ci illər)

**Leyla Vaqif qızı**
***Bakı Dövlət Universiteti***
***Leyla-Vaqif@mail.ru***

*1994-cü ildə Dağlıq Qarabağda atəşkəs dayandırıldıqdan sonra, Avropa Birliyi Şurası Avropa Komissiyası tərəfdaşlıq və əməkdaşlıq haqqında ikitərəfli müqavilələr bağlanması məqsədilə Azərbaycan ilə danışıqlara başlamağı məsləhət görmüşdü. Lakin Avropa İttifaqı və Azərbaycan (1996) arasında saziş bağlandıqdan sonra bu əlaqələr əməkdaşlıq istiqamətində inkişaf etməyə başlamışdı. Avropa İttifaqı 1992-1998-ci ildə ölkəyə 845 milyon ekyü yardım göstərmişdir.*

*Birliyin texniki proqramı Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsində mühüm rol oynayıb və bu proqramların ümumi məbləği (EHAR, EHA, FEOGA, FSP, REHAB) 369.29 milyon ekyu təşkil etmişdi.*

**Açar sözlər:** yardım, əməkdaşlıq, islahat, proqramlar, Avropa Ittifaqı

Avropa Birlikləri ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi 1999-cu ildə rəsmi qüvvəyə mindikdən sonra ikitərəfli münasibətlərin yardım mərhələsi daha yüksək səviyyə - əməkdaşlıq mərhələsi ilə əvəz olundu. Təsadüfi deyil ki, Avropa İttifaqının əksər proqramlarının da Azərbaycanda gerçəkləşməsi 1999-2000-ci illərdən etibarən başlamışdır. Bu proqramların içərisində texniki və sosial yardım proqramları xüsusi yer tutur. Onları əsasən aşağıdakı kimi qruplaşdırmaq olar: **EXAP** – Avropa İttifaqının Fövqəladə Yardım Proqramı; **EHA** – Fövqəladə Humanitar Yardım; **FEOQA** – Avropa Kənd Təssərrüfatı İdarəetmə və Zəmanət Fondu; **FSP** – Ərzaq Təhlükəsizliyi Proqramı; **REHAB** - Avropa İttifaqı Bərpa Proqramı (2). Bu proqramların içərisində Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyən proqramlar üstünlük təşkil edir. Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zəminində Azərbaycan Respublikasının ərazisinin 20% -nin işğal edilməsi, Ermənistanın hərbi təcavüzü və apardığı işğalçı siyasəti səbəbilə 1 milyona yaxın azərbaycanlının qaçqına və məcburi köçkünə çevrilməsi, heç şübhəsiz, ölkə iqtisadiyyatı üçün böyük maneə idi. Bu məqamları nəzərə alan Avropa

İttifaqının Ümumi İşlər üzrə Şurası özünün 29 iyun 1998-ci il tarixli sessiyasında qərara gəldi ki, "dəqiq müəyyənləşmiş proqramlar formasında Azərbaycana qrant dəstəyini artırmalıdır" (5). EXAP da iqtisadi inkişaf məqsədlərinə çatmaq və ölkədə sosial şəraiti yaxşılaşdırmaq niyyəti ilə yaradıldı: məqsəd-ölkənin inkişafına töhfə verəcəyi gözlənilən texniki-sosial infrastruktur layihələrinə sərmayə qoymaq idi.

İlk illərdə Avropa Komissiyası Azərbaycana 3 tranşda (1998, 1999, 2000-ci illər) 30 mln. avro vəsait ayırdı. EXAP daxilində maliyyələşdirilən layihələr Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil idi, Azərbaycan hökumətinin və Avropa Komissiyasının birgə razılığı ilə seçilmişdi (2). Avropa Komissiyası Proqramın icrasına nəzarət etmək və onun Avropa Komissiyası qaydaları ilə uyğunluğunu təmin etmək üçün Texniki Yardım Qrupu da təyin etdi. Layihənin icrası üçün Azərbaycan üçün 2000-ci ildən başlayaraq açıq tenderlər keçirməklə müqavilələr imzalanmışdır: bütün layihələr yerli podratçılar tərəfindən icra olunmuş, bəzi xidmət və təchizat müqavilələri beynəlxalq şirkətlər tərəfindən həyata keçirilmişdir (2). Qeyd edək ki, araşdırdığımız illərdə I və II tranş üzrə bütün layihələr müvəffəqiyyətlə başa çatmışdır. Tamamlanmış layihələr sonrakı idarəetmə və xidmət üçün müvafiq təşkilatlara təhvil verilmişdir.

EXAP üzrə üçüncü tranşda səhiyyə və sosial rifah sahəsinə, sosial infrastrukturun bərpasına yönələn layihələrə də eyni qaydada – 10 mln. avro ayrılmışdır. Bu proqram daxilində əsasən infrastrukturun bərpası və avadanlıq təchizatı nəzərdə tutulsa da, abadlaşdırılmış və təchiz olunmuş binaların sonu mərhələdə Azərbaycan əhalisinə xidmətin yaxşılaşdırılması məqsədi daşıması da qeyd olunmalıdır. Üçüncü tranşın ən məşhur layihələri aşağıdakılar olmuşdur ki, onlar da 2005-ci ilin sonunadək tamamlanmışdır: M.F.Axundov adına Mərkəzi Kitabxanada kitabların saxlanma şəraitinin yaxşılaşdırılması; Bakıda 9 xəstəxananın bərpası və avadanlıqla təchizatı; Bakıda radioaktiv izotopların saxlanma mərkəzi; Əlil uşaqlar və xəstələr üçün 9 sağlamlıq mərkəzinin bərpası və avadanlıqla təchizatı; su daşqınlarının qarşısının alınması tədbirləri və daşqından zərər çəkmiş su mənbələrinin bərpası (5).

EXAP çərçivəsində Avropa Komissiyasının maliyyə dəstəyilə Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda 200-dən 1000-ə qədər işçisi olan orta müəssisələri dəstəkləmək üçün Müəssisələrin Sanasiyası (Sağlamlaşdırılması) layihələrini də həyata keçirmişdir. 2003-cü ildə başlamış layihə çərçivəsində idarəetmə mədəniyyətinə, bazar iqtisadiyyatında fəaliyyət göstərmək və rəqabət aparmaq qabiliyyətinə xüsusi diqqət verilmişdir. Proqramda Avropa İttifaqının Sənaye üzrə aparıcı məsləhətçilərinin xidmətindən istifadə olunmuşdur (2). Bundan əlavə, Avropa Yenidənqurma və İnkişaf Bankı 30-dan 100-ə qədər işçisi olan kiçik müəssisələrin dəstəklənməsi üçün yerli məsləhətçilərin köməyilə Biznes Məsləhət Xidməti Proqramını da həyata keçirməyə başlamışdır ki, bu da öz növbəsində yerli peşəkar məsləhətçi sektorunu inkişaf etdirməyə imkan verir.

Avropa İttifaqının texniki proqramları içərisində FEOQA özəl yer tutur və təkcə Azərbaycan üçün deyil, bütün Birlik üzvləri üçün işləmə mexanizminə malikdir. Kənd Təsərrüfatı sahəsində Təmayül və Təminat Fondu (EAQQF və ya FEOQA) hələ 1962-ci ildə ümumi bazarı ("Yaşıl Avropa") yaratmaq məqsədilə təsis olunmuşdur. Belə ki, kənd təsərrüfatının inteqrasiya proseslərinə daxil edilməsi birgə aqrar siyasətin maliyyələşdirilməsini - yəni dövlətlərarası xüsusi fondun yaradılmasını zəruri etmişdi. FEOGA təsis məqsədlərinə müvafiq olaraq öz büdcəsini iki istiqamətə sərf edir: təmayül və təminat. FEOQA vəsaitinin 90%-i təminat fonduna ayırır və vahid kənd təsərrüfatı qiymətlərinin saxlanması məqsəd daşıyır (6). Təmayül Fondu isə aqrar-sənaye kompleksinin inkişafı üçün keçirilən tədbirləri maliyyələşdirir (5).

1995-ci ildən etibarən Avropa İttifaqı Azərbaycanla FEOQA çərçivəsində də əməkdaşlıq edir. 1995-1996-cı illərdə bu fond Azərbaycana 65 mln. avro vəsait ayırmışdır. Bunun da səbəbi aydındır: Azərbaycan Respublikasında kənd infrastrukturuna investisiya qoyuluşu ölkənin ümumi strategiyası üçün böyük əhəmiyyət kəsb edir. FEOQA çərçivəsində Aqrar Kredit Fondunun inkişafını dəstəkləyən layihə irəli sürülmüşdür ki, onun da məqsədi Azərbaycanda kənd infrastrukturunun inkişafına xidmət göstərən özəl və tam lisenziyalı bankın yaradılması olmuşdur (2). Layihə 2001-ci ildə başlanmış, 2004-cü ildə başa çatdırılmışdır.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə və inkişafına yönəldilmiş proqramlar içərisində sosial proqramlar da önəmli olmuşdur. FSP (Ərzaq Təhlükəsizliyi Proqramı) bu qəbildəndir. Avropa Komissiyasının proqramının əsas məqsədi - ərzaq təhlükəsizliyinin təmin olunmamasının səbəbləri ilə mübarizə aparmaqdır. Ərzaq təhlükəsizliyi hər kəsin hər zaman sağlam həyat üçün zəruri miqdarda və keyfiyyətli ərzaqla təmin olunması deməkdir (2).

Azərbaycan Respublikasında FSP - Ərzaq Təhlükəsizliyi Proqramı 1996-cı ildən etibarən həyata keçirilməyə başlanmışdır. 1996-1999-cu illərdə bu proqram üzrə Azərbaycanda 56,5 mln. avro (ekyü) ayrılmış, 2003-cü ildən etibarən qrantların verilməsi bərpa olunmuşdur (bax: cədvəl 1). Ümumilikdə isə FSP üzrə Azərbaycana ayrılmış vəsaitin ümumi miqdarı (1996-2005-ci illər ərzində) 77,3 mln. avro təşkil etmişdir (5).

İstər FEOQA, istərsə də FSP çərçivəsində Azərbaycanın kənd infrastrukturunun dəstəklənməsi layihələrini də doğurmuşdur. Bunların içərisində Aqrar Kredit Fondunun (AKF) Aqrarkredit ilə 2003-cü ildə birləşməsi sayıla bilər. Avropa Birliyinin fəal dəstəyi ilə baş vermiş bu birləçmə nəticəsində dövlət bankından bank olmayan kredit təşkilatına çevrilən Aqrarkredit maliyyə cəhətdən təchiz edilərək özünün ölkə ərazisindəki infrastrukturu vasitəsilə maliyyə xidmətlərini təklif etməyə başlamışdır. Layihənin məqsədi kənd yerlərinin kreditləşməsini zəruri peşəkar nou-hau ilə həyata keçirmək üçün məsləhəti davam etdirərək Aqrarkrediti bu sahədə ixtisaslaşdırmaq və bununla da Azərbaycan Respublikası Prezidentinin noyabr 2003-cü il tarixli fərmanına (işsizliyin azaldılması və Azərbaycanda yeni iş yerlərinin açılması) dəstək

olmaq idi. Layihəyə müvafiq olaraq Aqrarkredit 2004-cü ilin əvvəllərindən hədəfi əsasən kənd bazarı olmaqla, yenidən kreditləşməyə başlamış və kreditləşdirmədə üstünlük aşağıdakı aqrar sahələrə verilmişdir: bütün növ əkinçilik və heyvandarlıq sahələri, aqrar emalı və özəl kənd biznesi sahələri (2).

Cədvəl 1

**Avropa İttifaqı tərəfindən Azərbaycan Respublikasına yardım göstərilməsi üçün ayrılmış vəsaitlər (1992-2004-cü illər, mln. avro ilə)**

| İl | TACİS | ECHO | FSP | FEOQA | EXAP | REHAB | EHA | Total |
|---|---|---|---|---|---|---|---|---|
| 1992 | 12,5 | - | - | - | - | - | - | 12.5 |
| 1993 | 4.0 | 12.24 | - | - | - | - | 8.0 | 24.24 |
| 1994 | 4.0 | 18.85 | - | - | - | - | - | 22.85 |
| 1995 | 6.0 | 28.82 | - | 43.0 | - | - | - | 77.82 |
| 1996 | 8.0 | 7.7 | 14.5 | 22.65 | - | 3.0 | - | 55.85 |
| 1997 | 8.0 | 6.1 | 16.0 | - | - | 4.0 | - | 34.1 |
| 1998 | 8.0 | 4.1 | 14.0 | - | 10.0 | 4.5 | - | 40.6 |
| 1999 | 8.0 | 3.36 | 12.0 | - | 10.0 | 3.0 | 1,5 | 37.86 |
| 2000 | 7.0 | 1.5 | - | - | 10.0 | 3.67 | - | 22.17 |
| 2001 | 7.0 | - | - | - | - | - | - | 7.0 |
| 2002 | 7.0 | - | - | - | - | - | - | 7.0 |
| 2003 | 7.0 | - | 10.15 | - | - | - | - | 17.5 |
| 2004 | - | - | 10.15 | - | - | - | - | 10.15 |
| Total | 86.5 | 82.67 | 76.8 | 65.65 | 30.0 | 18.17 | 9.5 | 369.29 |
| **Mənbə**: 2; 5 | | | | | | | | |

2004-cü ildə ümumi məbləği 12 mlrd. manat olan (təx. 2,4 mln. ABŞ dolları) 600 qısa və orta müddətli kreditlər verilmişdir (3). Faizlər kənd təsərrüfatı istehsalı üçün illik 18, aqrar emal üçün 21, ticarət, xidmət və digər fəaliyyətlər üçün 24 səviyyəsində müəyyən olunmuşdur və həmin ilin sonunda ödəniş əmsalında 97% nəticə əldə edilmişdir.

Aqrarkredit üçün digər resurslardan gələn vəsaitlər də önəmli olmuşdur: məsələn, Aqrarkredit AKF ilə birləşdirdikdən sonra onun büdcəsinə 15,8 mlrd. manat (təx. 3,2 mln. ABŞ dolları) dəyərində kredit köçürülmüşdür. Bundan əlavə, Dünya Bankının "Təsərrüfatların özəlləşdirilməsi layihəsi"nə görə, Aqrarkredit 1998-2004-cü illər ərzində 30 mlrd. manat (təx. 6 mln. ABŞ dolları) kredit almış və təkcə 2004-cü ildə xalis 1,3 mlrd. manat (təx. 1,8 mln. ABŞ dolları) gəlir götürmüşdür. Üstəlik, 2004-cü il ərzində Aqrar-kredit keçmiş dövlət banklarının köhnə borclarında 3,1 mlrd. manat, keçmiş TACİS layihələri üzrə 1 mlrd. manat vəsait toplaya bilmişdir (toplam: təx. 800 min ABŞ dolları) (2).

Ərzaq Təhlükəsizliyi Proqramı ilə əlaqəli layihələr içərisində "Xəzərin Balıq Təsərrüfatının Davamlı İdarəsi" layihəsi üzərində dayanmağı da vacib

bilirik. Layihənin reallaşdırılması 2004-cü ildə başlamışdır və məqsədi Xəzər dənizinin beş sahilyanı ölkəsində balıq ehtiyatları tədbirlərini əhatə etmək, regionun xüsusi və səciyyəvi ehtiyatlarını ödəyə biləcək qiymətləndirmə metodologiyasını müəyyələşdirməkdir. Qeyd edək ki, bu layihə Xəzər Ekoloji Proqramının bir hissəsini təşkil edir.

Ümumiyyətlə, Avropa İttifaqı qeyd olunan müddət ərzində Azərbaycan Res-publikasına toplam 369,29 mln. avro vəsait ayırmış (bax: cədvəl) və Humanitar Yardım Ofisi – ECHO bu sosial yardımların təqdim olunmasına birbaşa nəzarət etmişdir. Fövqəladə Yardım (EXAP) və Fövqəladə Humanitar Yardım (EHA) Proqramları ilə yanaşı müharibədən zərər çəkmiş Füzuli, Ağdam, Ağcbədi rayonlarında infrastrukturun yenidən qurulması üzrə Bərpa Proqramı (REHAB) da 1996-2000-ci illərdə böyükmiqyaslı işlərə imkan yaratmışdır.

Avropa İttifaqı Komissiyası azad edilmiş ərazilərin dirçəldilməsi və Dağlıq Qarabağ münaqişəsi zamanı zərər çəkmiş əhalinin yaşayışı üçün məqbul şəraitin təmin edilməsi istiqamətində Azad Ərazilərin Bərpası və Yenidənqurulması Agentliyinin (ABY) fəaliyyətini dəstəkləmiş, 1996-cı ildə Azərbaycan hökuməti zərər çəkmiş ərazilərin bərpasına başlamaq haqqında qərar qəbul etmişdir və bu məqsədlə Bərpa və Yenidənqurma üzrə Dövlət Komissiyası (BYDK) yaratmışdır (1). Artıq 1997-ci ildə Avropa Birliyi REHAB proqramı çərçivəsində Füzuli rayonunun 22 kəndində infrastrukturun bərpasına 3 mln. ekyü sərf etmişdir və vəsait əsasən aşağıdakı sahələrə yönəlmişdir: elektrikləşdirmə, su təchizatı, iriqasiya və dəmiryolları. 1998-ci ildə isə Ağdamda aşağıdakı bərpa və yenidənqurma layihələri üçün 4 mln. ekyü məbləğində qrant ayırmışdır: İmişli və Ağcabədi arasında 80 km-lik yüksək gərginlikli elektrik xətti; İmişlidə elektrik yardımçı stansiyası üçün əlavə özək; 35 artezian quyusu və içməli su təchizatı sistemi; irriqasiya sistemi üçün 45 artezian quyusu; 11 kənddə müvafiq sayda orta ümumtəhsil məktəbi (2).

Proqramın ən böyük nailiyyəti 60000 ha kənd təsərrüfatı üçün yararlı tirpağı su ilə təmin edən suvarma sisteminin bərpası sayılır ki, bu da Füzuli, Ağdam və Ağcabədi rayonlarında 20.000 ailəyə kömək etmişdir, ümumiyyətlə REHAB-ın əsas hədəfi "müharibədən zərər çəkmiş ərazilərdə yaşayış səviyyəsinin və şəraitinin yüksəldilməsində, köçkünlərin məişəti üçün məqbul standartların təmin edilməsində Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə tənzimlənməsinin əhəmiyyətli üsullarını tapmaqda Azərbaycan hökumətinə kömək etmək" olmuşdur (6). Proqramın toplam büdcəsi 18,17 mln. avro təşkil etmişdir.

Bölgədə narkotik daşınmalarının qarşısının alınması, o cümlədən Dağlıq Qarabağın ermənilər tərəfindən işğal olunmuş ərazilərindən müvafiq tranzit kimi istifadə edilməsi şəraitində narkotiklərə nəzarət bir tək Azərbaycan hökumətinin deyil Avropa ictimaiyyətinin də məsuliyyətində və səlahiyyətindədir. Üstəlik, narkotik daşınmaların sosial problem olduğunu nəzərə alsaq, Cənubi Qafqazda Narkotiklərə nəzarət (SCAD) Regional Yardım Proqram üzərində də

dayanmalıyıq. Proqram 29 iyun 2001- ci il tarixdə Avropa Birliyi, BMT- nin İnkişaf Proqramı və Azərbaycan hökuməti arasında imzalanmış Sazişə əsasən fəaliyyət göstərir (2). Layihənin əsas məqsədi narkotiklərin qanunsuz yayılması əleyhinə "Azərbaycan Respublikası qanunvericiliyinin daha da təkmilləşdirilərək BMT-nin bu sahədə qəbul etdiyi konvensiyaların müddəalarına uyğunlaşdırılmasıdır" ki, bu məqsədlə dövlət qurumlarını təmsil edən nümayəndələrdən ibarət SCAD Proqramı çərçivəsində işçi qrupu uğurla fəaliyyət göstərərək Avropa İttifaqı tərəfindən ayrılmış beynəlxalq ekspertlərin tövsiyələrinə əsasən qeyd olunan istiqamətdə bir sıra layihə işləyib hazırlamışdır (2). Ən uğurlu fəaliyyətlərdən biri dəniz limanında narkotiklərə nəzarət layihəsi olmuşdur ki, onun da məqsədi – Bakı beynəlxalq dəniz limanında yerləşən hüquq-mühafizə orqanlarının işini koordinasiya etmək, Xəzər dənizi hövzəsində yerləşən beynəlxalq limanlarla yaxından əməkdaşlıq edərək məlumat mexanizmini daha da təkmilləşdirmək olmuşdur. Quru sərhədində narkotiklərə nəzarət layihəsinin məqsədi isə - narkotiklərin qanunsuz dövriyyəsi və qaçaqmalçılığın qarşısının alınması, gömrük – keçid məntəqələrinin işinin təkmilləşdirilməsidir. Sosial yardım layihəsi olaraq SCAD orta və ali məktəblərdə narkotiklərin yayılmasının qarşısının alınmasında da fəaliyyət göstərərək maarifləndirmə və təbliğat işlərinə yaxından dəstək vermişdir.

Avropa İttifaqının Azərbaycan Respublikası üçün nəzərdən keçirdiyimiz texniki və sosial yardım proqramları, göründüyü kimi, ilk növbədə, ölkədə sosial rifahı yüksəltməklə sosial sabitliyə nail olmaq, hökumətin apardığı iqtisadi islahatları dəstəkləmək və bölgədəki ümumi sosial-iqtisadi mühiti əlverişli etmək məqsədi daşımışdır. Layihələr qarşıya qoyulan məqsədə nail olmuş, 1999-2005-ci illər ərzində, yəni Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanmasından keçən 5 il müddətində ən zəruri yardımı təqdim etmiş və humanitar yardım əlaqələrindən iki bərabər əməkdaş arasında dəstək və əməkdaşlıq əlaqələri səviyyəsinə keçilməsinə imkan vermişdir.

### ƏDƏBİYYAT


1. Alpman C. ABY və AB Bərpa Proqramında əməkdaşlıq edirlər // "Azərbaycan", 03.04.1998, №74 (1883)
2. Avropa Birliyi və Azərbaycan: tərəfdaşlıq və əməkdaşlıq. "Azərbaycan" qəz., 2003.24 yanvar.
3. Avropa İttifaqı - Azərbaycan: Azərbaycanda proqram və layihələrin həyata keçirilməsinə dəstək ofisi olan Avropa Evi tərəfindən nəşr edilmiş məlumat bülleteni // "Azərbaycan"qəz., 2005.23 iyun.
4. Azərbaycan Prezidenti Heydər Əliyev Avropa İttifaqının nümayəndə heyətini qəbul etmişdir// "Azərbaycan" qəz., 2001.23 fevral.
5. Short information about the Tacis Programme in Azerbaijan // www.azerweb.com/en/program.php?id=136
6. European Training Foundation - http://www.etf.it

**О ТЕХНИЧЕСКОМ СОТРУДНИЧЕСТВЕ ЕВРОПЕЙСКОГО СОЮЗА С АЗЕРБАЙДЖАНОМ (1999-2005 гг.)**

**ЛЕЙЛА ВАГИФ КЫЗЫ**

**РЕЗЮМЕ**

После прекращения огня в Нагорном Карабахе в 1994 г. Совет Евросоюза рекомендовал Комиссии ЕС начать с Азербайджаном переговоры с перспективой заключения двухсторонних соглашений о партнерстве и сотрудничестве. После же заключения соглашения между ЕС и Азербайджаном (1996 г.) отношения эти стали развивается в сторону равноправных связей и сотрудничества. Только в грантах ЕС предоставил республике помощь в 1992-1998 гг. на 845 млн. экю.

Технические программы Союза сыграли существенную роль в проведении экономических реформ в Азербайджане и общая сумма этих программ (EXAP, EHA, FEOGA, FSP, REHAB) составил 369,29 млн. экю.

**Ключевые слова:** помощь, сотрудничество, реформа, программы, Европейский Союз

**ASSISTANCE PROGRAM OF THE EUROPEAN UNION AND AZERBAIJAN (1999-2005)**

**LEYLA VAGIF GIZI**

**SUMMARY**

After the cease-fire in Nagorno-Karabakh in 1994, the EU Council recommended the European Commission start negotiations with Azerbaijan with a view to the conclusion of bilateral agreements on partnership and cooperation. But after the conclusion of the agreement between the EU and Azerbaijan (1996), these relationships are evolving towards equity and collaboration. Only the EU provided grants to help the country in 1992-1998.

Social programs of the Union played a significant role in economic reforms in Azerbaijan, and the amount of these programs (EHAR, EHA, FEOGA, FSP, REHAB) totaled 369.29 million ECU.

**Key words:** grants to help, cooperation, reform, programs, European Union